Unikal

22 may / 2021

# Vətən sevgisinin qəhrəmanlıq salnaməsi

***Naib Akif oğlu Qasımov İkinci Qarabağ müharibəsində canını Vətəninə qurban verməklə zaman-zaman gələn nəsillərə nümunə ola biləcək bir ömür yaşadı.***



İndi böyük bir xalqın iftixar, qürur yerinə dönən bu, Vətən sevdalısı Masallı rayonunun Mahmudavar kəndində dünyaya göz aşmışdı. Həyat yolu qısa oldu, amma yaşına uyuşmayan qəhrəmanlığı əbədi yaşamaq üçün adını şanlı tariximizin qızıl səhifəsinə yazdı. Bir də Naibin ölməzliyi ondadır ki, Vətən üçün yaşadı, torpaq uğrunda canından keçdi. Sədaqətli olduğu dövlət də qəhrəman oğlunun hünərini "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə uca tutdu.

Naib müstəqil həyata qədəm qoyan gündən nəcib amalı xalqına fayda vermək, xeyirxah məqsədlər uğrunda çalışmaq olur. Qəlbi saf olduğu üçün elini, yurdunu həqiqi məhəbbətlə sevməyi, qurub-yaratmağı bacarır. Vətənin xoş günlərinə sevindiyi kimi, erməni faşistlərin Azərbaycan torpaqlarına təcavüzü heç cür onu rahat buraxmır. Elə 2015-ci ildə ordu sıralarına düşməndən qisas almaq hissi ilə gedir. Vətəninə, dövlətinə ləyaqətlə xidmət edir. Naibin cəsurluğunu, çevikliyini görüb onu Xüsusi Təyinatlı Qüvvələrin sırasına götürürlər.

N. Qasımov ilk dəfə 26 Aprel döyüşündə düşmənlə ölüm-dirim savaşına girir. Lələtəpənin azad olmasında hünər göstərməklə Vətənə qəlbən bağlı oğul olduğunu bildirir. Tovuz döyüşlərinə baş çavuş kimi qatılır. Qalib olmaq istəyi ilə vuruşur və düşməni məhv etməklə arzusuna çatır.

İkinci Qarabağ müharibəsi başlanan zaman Naib Qasımov yenə öndə gedir. Cəbrayıl uğrunda qeyri-bərabər döyüşdə sərrast atəşlə ermənilərin neçə-neçə texnikasını sıradan çıxardır, canlı qüvvəsini sarsıdır. Oktyabrın 6-da namərd gülləsi ondan yan keçmir. Qəhrəman Vətən oğlunun torpağa axıtdığı qan şanlı zəfərimizin başlanğıcı olur.

İndi Naibin adı çəkiləndə bütün Masallı camaatı onunla fəxr edir. O, öz xalqı üçün Vətənə, torpağa sədaqət simvoludur.

***Zəfər Orucoğlu, AJB üzvü***